# Ölkəmiz dünya siyasətində vacib rol oynadığını bir daha təsdiqlədi

**"Oktyabrın 22-24-də Kazan şəhərində BRICS ölkələrinin 16-cı sammitinin yekununda üzv dövlətlərin başçıları Kazan Bəyannaməsini qəbul ediblər. Sammit çərçivəsində "Outreach"/"BRICS+" adlı plenar iclas keçirilib. Sözügedən plenar iclas nəticəsində 13 ölkəyə - Qazaxıstan, Əlcəzair, Belarus, Türkiyə, Boliviya, Kuba, İndoneziya, Malayziya, Nigeriya, Tailand, Uqanda, Özbəkistan və Vyetnama BRICS-in tərəfdaşı statusu verilib".**



Bu sözləri "Azərbaycan" qəzetinə Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin aparıcı məsləhətçisi Roza Bayramlı deyib.

O bildirdi ki, iclasda çıxışı zamanı Prezident İlham Əliyev beynəlxalq münasibətlər sahəsində Azərbaycanın çoxtərəflilik prinsipinin fəal tərəfdarı olduğunu vurğuladı. Dövlət başçısı bu çərçivədə Azərbaycanın 2020-2023-cü illərdə Qoşulmama Hərəkatına sədrliyi dövründə fəaliyyəti haqda bəhs etdi. "Bundan başqa, Prezident ölkənin iki mühüm beynəlxalq nəqliyyat dəhlizinin - "Şimal-Cənub" və "Şərq-Qərb" kəsişməsində yerləşdiyini, müasir infrastruktura malik olduğunu xatırlatdı. Prezident İlham Əliyev gələn ay Azərbaycanda keçiriləcək ən böyük beynəlxalq iqlim konfransı - COP29-dan da söz açdı. Dövlət başçısı həmçinin qeyd etdi ki, Azərbaycan artıq Qlobal Cənub və Qlobal Şimal arasında iqlim üzrə əməkdaşlığa töhfə verir və bir çox məsələdə, o cümlədən qlobal təhlükəsizlik, beynəlxalq hüququn aliliyi, bir-birinin işlərinə qarışmamaq və s. dünya ölkələri arasında qarşılıqlı anlaşmaya nail olunmasına səy göstərəcək", - deyə siyasi təhlilçi bildirib.

Rusiya Prezidenti Vladimir Putinin iclas zamanı Azərbaycanın tranzit dəhlizlər baxımından böyük əhəmiyyəti olduğunu dediyini xatırladan R.Bayramlı qeyd edib ki, Putin həmçinin Azərbaycan və Rusiya arasında artan ticarət dövriyyəsinin də xüsusi əhəmiyyətə malik olduğunu vurğulayıb. Sözügedən sammit əsnasında Prezident İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyan arasında görüş də keçirilib. Görüş tərəflər arasında ikitərəfli dialoq formatında baş tutub. Nikol Paşinyan Bakı ilə İrəvan arasında sülhün fundamenti üçün prinsipial məsələlər üzrə razılıq əldə olunduğunu və dövlətlərarası münasibətlərin qurulması haqqında müqavilə layihəsi üzrə müddəaların 80-90 faizinin hazır olduğunu deyib. Ermənistanın baş naziri bildirib ki, nəqliyyat əlaqələrinə və boru kəmərlərinin ölkəsinin ərazisindən keçməsində maraqlıdır, eləcə də sadələşdirilmiş sərhəd və gömrük nəzarəti prosedurundan istifadə etməklə Naxçıvan şəhəri ilə nəqliyyat əlaqəsini yaratmağa hazırdır. Hər iki tərəf xarici işlər nazirlərinə sülh sazişinin tezliklə başa çatdırılması və bağlanması üçün danışıqları davam etdirmələrini tapşırıb.

Siyasi təhlilçi qeyd edib ki, Azərbaycanın BRICS-in 16-cı sammitində iştirakı böyük əhəmiyyət daşıyır və ölkəmizin beynəlxalq arenada mövqeyinin daha da möhkəmləndirilməsi üçün imkan yaradıb: "Azərbaycan təşkilatın üzvləri olan Rusiya və Çinlə fəal olaraq əməkdaşlığı genişləndirir. Azərbaycanın sammitdə iştirakı ölkəmizin dünya siyasətində vacib rolunu bir daha təsdiqləyir. Bunun sübutu olaraq da Kazan Bəyannaməsində Azərbaycanda keçiriləcək COP29 konfransına dair yer almış bəndi göstərmək olar. Belə ki, bəyannamədə bildirilir: "Biz Azərbaycanın COP29-u uğurla keçirəcəyi fikrinə sadiqik və təsirlərin yumşaldılması, uyğunlaşma, itki və zərərin qarşılanması sahələrində cari və gələcək milli fəaliyyət planlarına və məqsədlərə nail olmaqda əsas vasitə kimi inkişaf etməkdə olan ölkələr üçün iqlim maliyyələşdirilməsi sahəsində tutarlı nəticələr gözləyirik".

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

Azərbaycan. - 2024.- 27 oktyabr (№ 237).- S.3.